**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"12" fevral 2026-cı il

## Fənn sillabusu

**İxtisasın şifri və adı:** 6001021-*Təhsildə sosial-psixoloji xidmət (A+B)*
**Fakültə**: Filologiya və ibtidai təhsil
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
I. **Fənn haqqında məlumat**:
**Fənnin adı**: ***Psixoanaliz***
***Fənn proqramı:*** *Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.2018-ci il tarixli F-235 saylı əmri ilə təsdiq edilmişdir.*
**Kodu:** İPF-B09
**Tədris ili:** III (2025-2026) Semestr: VI
**Tədris yükü:** Cəmi: 150 saat. Auditoriya -45 saat (30 saat mühazirə, 15 saat seminar)
**Tədris forması:** Əyani
**Tədris dili:** Azərbaycan dilli
**AKTS üzrə kredit:** 5 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı,adı, atasının adı, elmi dərəcəsi və elmi adı:** Ph.D.dos. Verdiyeva Ləman Əşrəf qızı
B/m Hüseynova Rəna Salamulla qızı
**Kafedranın ünvanı**: Lənkəran ş., Ə. Məmmədov k. 19.LDU-nun 2 saylı binası
**E-mail ünvanı:** leman.verdiyeva@mail.ru
**Məsləhət günləri və saatı:** 1 ci gün saat 14.00-16.00
**III. Tövsiyə olunan dərsliklər və dərs vəsaiti və metodiki vəsaitlər:**

**Əsas:**

1. Əliyev R.İ. "Psixologiya tarixi", Bakı, Nurlan-2006
2. İsmayılov F.Q. "Seçilmiş əsərləri(IV cild)" Klassik psixoanalizin əsasları, Bakı 2011
3. Овчаренко В.И. "Классический и современный психоанализ"-2000
4. Ярошевский М. Г. История психологии. 2006; несколько изданий
5. Психоанализ https://ru.wikipedia.org/wiki/Психоанализ
6. https://psyjournal.ru/articles/problema-egoizma-v-rabotah-zfreyda
7. Толкование_сновидений.https://ru.wikipedia.org/wiki/Толкование_сновидений
8. https://web.archive.org/web/20090521020659/http://www.psychosophia.ru/pdf/clsmdrn pschnls.pdf

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**

Psixoanaliz XIX əsrin sonu XX əsrin əvvəllərində yaranmış psixoloji nəzəriyyədir. Psoxoanaliz psixi problemlərin, pozuntuların müalicəsinə tətbiq olunan ən təsirli metod kimi də populyarlıq qazanmışdır. Psixoanaliz ilk olaraq şüuraltı proseslərin tədqiqi məqsədilə yarandı, daha sonra müxtəlif səpkili sosial məsələləri həll edən elmi-praktik sistem kimi formalaşdı. Müasir psixoanalizin bir-biri ilə sıx bağlı olan bir sıra istiqamətləri var:psixoanalitik nəzəriyyə, klinik psixoanaliz, tətbiqi psixoanaliz. Psixoanalizin yaranışı insanların özləri haqqında fikirlərinin köklü dəyişilməsinə səbəb oldu., onların özlərini dərk etməsinə təkan verdi. Praktik psixoloqların hazırlanmasında bu sahəyə olan maraq nəzərə alınmışdır və bakalavr pilləsində təhsil alan tələbələrə "Psixoanaliz" fənni tədris olunur. Təqdim olunan "Psixoanaliz" adlı

proqramda eyni adlı fənnə aid mövzuların mühazirə və seminar planı öz əksini tapmışdır. Kursun tədrisinə 30 saat mühazirə və 15 saat seminar olmaqla, ümumilikdə 45 saat ayrılmışdır. Fənnin məqsədi tələbələrə tədris olunan mövzular üzrə və onların praktiki misal və məsələlərin həllinə tətbiqi üzrə mükəmməl bilik, bacarıq və vərdişlər aşılamaqla yanaşı, həm də aşağıdakılara nail olmaqdır:

- tələbələrdə düşüncə qabiliyyətinin inkişafı;
- deduktiv və induktiv təhlil bacarığının inkişafı;
- müzakirə xəttinin inkişafı, alternativ yolun tapılması, qəbul edilən qərarın dəqiqliyi və effektivliyinin əsaslandırılması, ümumiləşdirmə və ya deduksiya əsasında alınan nəticələri izah etmək və əsaslandırmaq bacarığının inkişafı;
- gələcəkdə ixtisası üzrə yaranacaq real problemin həll edilməsində fənn üzrə əldə etdiyi bilik, bacarıq və vərdişlərdən istifadə etmə bacarığının inkişafı.

**VII Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır

VIII Qiymətləndirmə: Fənn üzrə tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Yəni tələbələrin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ( 50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.

-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açа bilir.

-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;

-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir

-6 bal- tələbənin cavabı əsasən düzgündür.

-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.

-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;

- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| Bal | Qiymət | |
|---|---|---|
| | Sözlə | Həriflə |
| 91-100 | əla | A |
| 81-90 | çox yaxşı | B |
| 71-80 | yaxşı | C |
| 61-70 | kafi | D |
| 51-60 | qənaətbəxş | E |
| 50 – baldan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili nizam –intizam qaydalarını pozduqda onun onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim-mövzu planı: Auditoriya saatı – 45 (30 saat mühazirə)**

| № | Keçirilən mövzuların məzmunu | saat | Tarix |
|---|---|---|---|
| | | Mühazirə | |
| 1 | **Mövzu №1**: **Psixoanalizin nəzəri, metodoloji əsasları və inkişaf tarixi.**<br>**Plan:**<br>1. Psixoanalizin yaranmasının ictimai – tarixi şəraiti.<br>2. Z.Freydin həyatı və fəaliyyəti.<br>3. Z.Freyd psixoanalizin banisi kimi.<br>4. Xarici ölkələrdə psixoanalitik hərəkatın inkişafı.<br>5. Sovet psixologiyasında psixoanaliz təliminə münasibət.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 2 | **Mövzu №2. Şəxsiyyətin haqqında psixoanalitik nəzəriyyələr.**<br>**Plan:**<br>1. Müasir psixologiyada şəxsiyyət problemi.<br>2. Şəxsiyyət haqqında klassik nəzəryyələr.<br>3. Şəxsiyyət haqqında klinik nəzəriyyələr.<br>4. Şəxsiyyət haqqında humanistik nəzəriyyələr.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 3 | **Mövzu №3. Psixoanalizdə psixikanın topoqrafik modeli.**<br>**Plan:**<br>1. Müasir psixologiyada şüur, şüuraltı və şüursuzluq problemi.<br>2. Z.Freydin psixoloji apparat nəzəriyyəsinin məzmunu.<br>3. Topoqrafik modelə görə materialın işlənməsinin tipləri.<br>4. K.Yunqun konsepsiyasında şüur və şüursuzluq problemi.<br>5. A.Adler və E.Frommun şüur və şüursuzluq probleminə münasibəti.<br>6. Mentalitet anlayışının mahiyyəti.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 4 | **Mövzu №4. Psixoanalizdə şəxsiyyətin sturuktur modeli.**<br>**Plan:**<br>**1.** Mənlik şüuru və özünüdərk: səviyyələri və sturukturu. | 2 | |

| | | | |
|---|---|---|---|
| | 2. Z.Freydin üç komponentli struktur modeli.<br>3 Şəxsiyyətə tipoloji yanaşmalar (K.Yunq, E.Şpranqer, K.Xorni, E.Fromm)<br>***Mənbə:*** [1, 2, 5] | | |
| 5 | **Mövzu №5. Psixoseksual inkişaf konsepsiyaları və psixoanaliz.**<br>**Plan:**<br>1. Z.Freydin psixoseksual inkişaf konsepsiyası.<br>2. R.Şpitsin genetik sahə nəzəriyyəsi.<br>3. M.Möllerin ayırma – fərdiləşmə nəzəriyyəsi.<br>4. E.Eriksonun inkişaf konsepsiyası.<br>***Mənbə:*** [1, 4, 6] | 2 | |
| 6 | **Mövzu №6. Müdafiə mexanizmləri və psixoanaliz.**<br>**Plan:**<br>1. Psixikanın fəaliyyətində müdafiə mexanizmlərinin rolu.<br>2. Yetkinləşməmiş müdafiə mexanizmləri.<br>3. Yetkin müdaifiə mexanizmləri.<br>**4.** Müxtəlif xəstəliklər zamanı meydana çıxan müdafiə mexanizmləri.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 7 | **Mövzu №7. Psixoanalizdə yuxugörmə nəzəriyyəsi.**<br>**Plan:**<br>1. Şüursuz psixi prosseslərə aid müasir konsepsiyalar.<br>2. Z.Freydin "yuxu – nümunə"si və "Yuxugörmənin yozulması" əsəri.<br>3. Yuxugörmə zamanı yerinə yetirilən psixi əməliyyatlar.<br>4. Yuxugörmənin təhlili şərtləri.<br>5. Yuxugörmənin qanunauyğunluqları.<br>***Mənbə:*** [1, 4, 7] | 2 | |
| 8 | **Mövzu №8. Psixoanaliz və dinamik meylli terapiya.**<br>**Plan:**<br>1. Dinamik meylli terapiyanın məqsədi.<br>2. Sərbəst assosiasiyalar üsulu.<br>3. Yuxuların izahı ilə aparılan iş.<br>4. Transfer və əks-transfer anlayışlarının mahiyyəti.<br>5. Pasiyentlərin seçilmə şərtləri.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 9 | **Mövzu №9. Psixoanalizdə psixoterapiya problemi.**<br>**Plan:**<br>1. Psixoterapiya haqqında anlayış.<br>2. Psixoterapiyanın yaranma tarixi.<br>3. Psixoterapiyanın tətbiqi sahələri.<br>4. Psixoterapiyanın formaları.<br>5.Psixoterapiyanın növləri.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 10 | **Mövzu №10. Psixoterapiyaya dair konsepsiyalar.**<br>**Plan:**<br>1. Psixoanaliz psixoterapevtik üsul kimi.<br>2. K.Yunqun psixoterapiya konsepsiyası.<br>3. A.Adlerin psixoterapiya konsepsiyası. | 2 | |

| | | | |
|---|---|---|---|
| | 4. K.Rocers və yardım olunana yönələn terapiya.<br>5. E.Fromm, F.Skinner, V.Rayx, U.Ceyms və b. psixoterapiyanın inkişafında rolu.<br>***Mənbə:*** [1, 2, 3] | | |
| 11 | **Mövzu №11. Psixoanalizdə hipnoz və təlqin problemləri.**<br>**Plan:**<br>**1.** Hipnozun yaranma tarixi.<br>**2.** Q.Brenheymin təlqin nəzəriyyəsi.<br>**3.** İ.P.Pavlovun hipnoz nəzəryyəsi.<br>4. Hipnoz haqqında psixoanalitik nəzəriyyə.<br>5.Təlqin və özünütəlqin haqqında anlayış.<br>***Mənbə:*** [1, 4, 5] | 2 | |
| 12 | **Mövzu №12. Hipnosuggestiv psixoterapiya.**<br>**Plan:**<br>1. Hipnotik yuxu altında təlqin.<br>2. Özünütəlqinin tətbiqi və müalicə imkanları.<br>3. Təlqinə həssaslığın yoxlanması üsulları.<br>4. Hipnozetmə texnikası.<br>5. M.Eriksonun hipnoterapiyası.<br>***Mənbə:*** [1, 2, 4] | 2 | |
| 13 | **Mövzu №13. Ənənəvi psixoanaliz.**<br>***Plan***:<br>1. Ənənəvi psixoanalizin xüsusiyyətləri.<br>2. Psixoanaliz texnikasının mərhələləri.<br>3. Köçürmə fenomeninin formaları.<br>4. Yuxugörmənin təhlili.<br>***Mənbə:*** [1, 2, 3] | 2 | |
| 14 | **Mövzu №14.** Psixoanalitik terapiya<br>***Plan:***<br>**1.** Psixoanalitik terapiyanın əsas xüsusiyyətləri və üsulları.<br>a)Tənqidə yönəlmiş (ekspressiv) üsul.<br>b)Davametdirici (münasibət) üsul.<br>**2.** Psixoanalitik terapiyanın mərhələləri.<br>**3.** Emosional-stress psixoterapiyası.<br>***Mənbə:*** [1, 4, 5] | 2 | |
| 15 | **Mövzu №15. Artterapiya və psixodramanın psixoanalizdə yeri**<br>***Plan:***<br>1. Artterapiyanın mahiyyəti və növləri.<br>2. Z.Freyd və K.Yunqun artterapiyadan istifadə təcrübəsi.<br>3. ABŞ-da və Rusiyada artterapiyanın tətbiqi tarixi.<br>4. Psixodrama qrup terapiyasının forması kimi.<br>5. Psixodramanın fazaları və üsulları.<br>***Mənbə:*** [1, 2, 3] | 2 | |
| | **Cəmi:** | **30s.** | |
| | **Seminar** | | |
| 1 | Psixoanalizin nəzəri, metodoloji əsasları və inkişaf tarixi. Şəxsiyyətin haqqında psixoanalitik nəzəriyyələr. | 2 | |
| 2 | Psixoanalizdə psixikanın topoqrafik modeli. | 2 | |

| | | | |
|---|---|---|---|
| 3 | Psixoanalizdə şəxsiyyətin sturuktur modeli. Psixoseksual inkişaf konsepsiyaları. | 2 | |
| 4 | Psixoanaliz və dinamik meylli terapiya. | 2 | |
| 5 | Psixoterapiyaya dair konsepsiyalar. | 2 | |
| 6 | Psixoanalizdə hipnoz və təlqin problemləri. Hipnosuggestiv psixoterapiya. | 2 | |
| 7 | Psixoanalitik terapiya | 2 | |
| 8 | Artterapiya və psixodramanın psixoanalitik təhlili | 1 | |
| | **Cəmi** | **15s.** | |

**XI. Fənn üzrə tələblər:**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, bacarıq və vərdişləri:

- psixoanaliz haqqında elmi biliklər;
- psixoanalizin modifikasiyası və inkişaf xüsusiyyətləri haqqında biliklər;
-psixoanalizdə özünüdərkin mahiyyəyi haqqında biliklər.
- psixoanalizin yaranma tarixi ilə
- psixoanalizin yarnamsında və inkişafında xidmətləri olan psixoloq alimlərin adları ilə
- Şəxsiyyətin inkişafına dair psixoanalitik nəzəriyyələr
- Psixoanalizdə eqoizm və alturizm problemlərini bilməli və təhlil etməyi bacarmalıdır.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-mühazirə, seminar, praktiki tapşırıqlar
-təqdimat və müzakirə
-debat
-müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlim nəticələri:**

**FTN 1.** Humanitar elmlər içərisində psixoanalizin yerini, tarixi inkişaf mərhələlərini, əsas problemlərini şərh edir.
**FTN 2.** Psixoanaliz konsepsiyaları və istiqamətləri arasında qarşılıqlı əlaqəni müəyyənləşdirir, paralel müqayisə aparmağı bacarır.
**FTN 3.** Müxtəlif psixoanaliz nəzəriyyələri vasitəsilə insan, mədəniyyət və cəmiyyət hadisələrini təhlil etməyi öyrənir.
**FTN 4.** Fəlsəfi düşüncələrlə psixoanaliz konsepsiyasının kəsişmə nöqtələri və təsir sferasını araşdırmağı bacarır.
**FTN 5.** Klassik və müasir psixoterapiya konsepsiyaları haqqında məlimatları sistemləşdirmək və ümumiləşdirmək qabiliyyətinə yiyələnir.
**FTN 6.** Psixoanalitik terapiya üsullarının tətbiqi istiqamətləri və qaydalarını mənimsəyir.

**XIV tələbələrin fənn haqqında fikrinin öyrənilməsi**

**XV. Fənn üzrə kollokvium sualları:**

**I. Kollokvium sualları:**

1. Psixoanalizin yaranmasının ictimai – tarixi şəraiti.
2. Z.Freyd psixoanalizin banisi kimi.
3. Xarici ölkələrdə psixoanalitik hərəkatın inkişafı.
4. Müasir psixologiyada şəxsiyyət problemi necə tədqiq edilir
5. Şəxsiyyət haqqında klassik nəzəryyələr hansılardır, onların mahiyyətini izah edin...
6. Şəxsiyyət haqqında klinik nəzəriyyələr hansılardır, onların mahiyyətini izah edin...

7. Şəxsiyyət haqqında humanistik nəzəriyyələr hansılardır, onların mahiyyətini izah edin...
8. Müasir psixologiyada şüur, şüuraltı və şüursuzluq problemi necə təhlil olunur
9. Z.Freydin psixoloji apparat nəzəriyyəsinin məzmununu izah edin
10. Topoqrafik modelə görə materialın işlənməsinin tiplərini izah edin

**II. Kollokvium sualları:**

1. K.Yunqun konsepsiyasında şüur və şüursuzluq problemi necə təhlil olunur.
2. A.Adler və E.Frommun şüur və şüursuzluq probleminə münasibətinin elmi izahını verin.
3. Mənlik şüuru və özünüdərk: səviyyələri və sturukturu anlayışlarının izahını verin.
4. Z.Freydin üç komponentli struktur modelini ətraflı izah edin.
5. Şəxsiyyətə tipoloji yanaşmaları K.Yunq, E.Şpranqer K.Xorni və E.Fromm konteksində izah edin.
6. Z.Freydin psixoseksual inkişaf konsepsiyasını izah edin.
7. R.Şpitsin genetik sahə nəzəriyyəsini izah edin.
8. M.Möllerin ayırma – fərdiləşmə nəzəriyyəsini izah edin.
9. E.Eriksonun inkişaf konsepsiyasını izah edin.
10. Psixikanın fəaliyyətində müdafiə mexanizmlərinin rolu.

**XVI. İmtahan sualları**

1. Z.Freyd psixoanalizin banisi kimi. (ətraflı izah edin)
2. Müasir psixologiyada şəxsiyyət problemi necə təhlil olunur?
3. Şəxsiyyət haqqında klassik nəzəryyələr hansılardır, onların mahiyyətini izah edin..
4. Şəxsiyyət haqqında klinik nəzəriyyələr hansılardır, onların mahiyyətini izah edin..
5. Şəxsiyyət haqqında humanistik nəzəriyyələr hansılardır, onların mahiyyətini izah edin.
6. Müasir psixologiyada şüur, şüuraltı və şüursuzluq problemi necə təhlil olunur?
7. Z.Freydin psixoloji apparat nəzəriyyəsinin məzmununun elmi izahını verin.
8. Topoqrafik modelə görə materialın işlənməsinin tiplərini izah edin .
9. K.Yunqun konsepsiyasında şüur və şüursuzluq problemi necə təhlil olunur?
10. A.Adler və E.Frommun şüur və şüursuzluq probleminə münasibətinin elmi izahını verin.
11. Mənlik şüuru və özünüdərk: səviyyələri və sturukturu anlayışlarını izah edin.
12. Z.Freydin üç komponentli struktur modelini ətraflı izah edin.
13. Şəxsiyyətə hansı tipoloji yanaşmalar mövcuddur?(K.Yunq, E.Şpranqer, K.Xorni, E.Fromm)
14. Z.Freydin psixoseksual inkişaf konsepsiyasını ətraflı izah edin.
15. R.Şpitsin genetik sahə nəzəriyyəsini ətraflı izah edin.
16. M.Möllerin ayırma – fərdiləşmə nəzəriyyəsini ətraflı izah edin
17. E.Eriksonun inkişaf konsepsiyasını ətraflı izah edin
18. Psixikanın fəaliyyətində müdafiə mexanizmlərinin rolu nədsən ibarətdir?
19. Yetkinləşməmiş və yetkin müdafiə mexanizmlərini necə təhlil edə bilərsiniz?
20. Müxtəlif xəstəliklər zamanı müdafiə mexanizmləri necə meydana çıxır?
21. Şüursuz psixi prosseslərə aid müasir konsepsiyalar ətraflı izah edin
22. Z.Freydin "yuxu – nümunə"si və "Yuxugörmənin yozulması" əsərini təhlil edin
23. Yuxugörmə zamanı yerinə yetirilən psixi əməliyyatları izah edin.
24. Yuxugörmənin təhlili şərtlərini izah edin.
25. Yuxugörmənin qanunauyğunluqları hansılardır?
26. Dinamik meylli terapiyanın məqsədi nədən ibarətdir?
27. Sərbəst assosiasiyalar üsulu necə tətbiq edilir?
28. Yuxuların izahı ilə aparılan iş necə həyata keçirilir?
29. Transfer və əks-transfer anlayışlarının mahiyyəti nədən ibarətdir?
30. Pasiyentlərin seçilmə şərtlərinə nələr daxildir?
31. Psixoterapiyanın yaranma tarixi və tətbiqi sahələri hansılardır?
32. Psixoterapiyanın hansı formaları və növləri vardır?
33. K.Yunqun, A. Adler və K. Rocersin psixoterapiya konsepsiyasını izah edin.

34. E.Fromm, F.Skinner, V.Rayx, U.Ceyms və b. psixoterapiyanın inkişafında rolu nədən ibarətdir?
35. İ.P.Pavlovun hipnoz nəzəryyəsinin mahiyyətini izah edin
36. Hipnoz haqqında psixoanalitik nəzəriyyə.izah edin
37. Təlqin və özünütəlqin anlayışını təhlil edin.
38. Ənənəvi psixoanalizin xüsusiyyətlərini izah edin
39. Psixoanaliz texnikasının mərhələləri hansılardır?
40. Köçürmə fenomeninin formaları hansılardır?
41. Yuxugörmənin təhlil edin.
42. Psixoanalitik terapiyanın əsas xüsusiyyətləri və üsullarını təhlil edin:
    a)Tənqidə yönəlmiş (ekspressiv) üsul.
    b)Davametdirici (münasibət) üsul.
45. Psixoanalitik terapiyanın mərhələlərini izah edin.
46. Emosional-stress psixoterapiyasını izah edin .
47. Artterapiyanın mahiyyəti və növləri.
48. Z.Freyd və K.Yunqun artterapiyadan istifadə təcrübəsi izah edin.
49. Psixodrama qrup terapiyasının forması kimi izah edin.
50. Psixodramanın fazaları və üsullarını təhlil edin.

***"Psixoanaliz" fənninin sillabus 6001021 "Təhsildə sosial-psixoloji xidmət" ixtisasının təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Pedaqogika, psixologiya və incəsənət kafedrasının 13 fevral 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol №06).***

Fənn müəllimi: dos. L.Ə.Verdiyeva

B/m. R.S.Hüseynova

Kafedra müdiri: dos. A.X.Əliyev